
"Regionlarda da seçki f allığı yüks k olub"

Yazan
09.10.13 18:14 -



Azərbaycanın regionlarında keçirilən prezident seçkilərində də seçki fəallığı yüksək olub.

Bunu belçikalı müşahidəçilər, seçkilərin müşahidəsi üzrə Avropa Akademiyasının müşahidə missiyasının üzvləri Andre Francois Pierre Hoebrechts və Belçika Parlamentinin deputatı, David Girts bildirib.
Belçikalı deputatlar Xaçmaz rayon 56 saylı seçki məntəqəsində seçki prosesini müşahidə ediblər.

Beynəlxalq müşahidəçilərin sözlərinə görə, sözügedən seçki məntəqəsində günün birinci yarısında artıq seçicilərin 50 faizindən çoxu səs verib və günün ikinci yarısında bu göstərici 80 faizdən yuxarı təşkil edib.

Müşahidəçilər bildiriblər: "Azərbaycanda keçirilən prezident seçkilərində indiyədək heç bir qanun pozuntusu müşahidə etməmişik. Hər kəs seçki məntəqəsinə gələrək sərbəst şəkildə səs verib."